# AZƏRBAYCAN RESPUBLIKASINDA EKOLOJİ GÖSTƏRİCİLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Paşayeva K.T.***
*(BDU, Tətbiqi riyaziyyat və kibernetika fakültəsi)*
kusvrp20@gmail.com

***Xülasə:*** *Təqdim olunan işdə Azərbaycan Respublikasında ekoloji göstəricilər araşdırılıb,ətraf mühitin mühafizəsinə çəkilən xərclər göstərilmişdir.Eyni zamanda tədqiqat nəticəsində aşkar olunmuşdur ki,ölkədə insan inkişafı üçün ekoloji göstəricilər mühüm rol oynayır və ekoloji göstəricilərin statistikası dəqiq aparılmalıdır.*

***Açar sözlər:*** *ətraf mühit, investisiya,ekoloji göstəricilər, davamlı insan inkişafı*

Azərbaycan Respublikasında ekoloji göstəricilər dedikdə əsasən atmosferin,suyun,torpağın ekoloji aspektlərdən təhlili nəzərdə tutulur.Oksigen və suya görə reproduktiv imkan, demoqrafik tutum, elektrik enerjisindən istifadə səviyyəsi, atmosfer havasına zərərli tullantıların buraxılma modulu,torpaqdan səmərəli istifadə ətraf mühitə şəhər tikintisi amillərinin birgə təsirlərinin göstəriciləri də ekoloji güstəricilərin qiymətləndirilməsində mühim rol oynayır.Davamlı insan inkişafı üçün ekologiya və ətraf mühit mühafizəsi mühüm rol oynayır.Ətraf mühitin çirklənməsinin insan sağlamlığına yaratdıgı

təhlükənin qarşısını almaq üçün bu sahəyə qoyulan investisiyalar artırılmalı,tullantıların statistikası bölgələr üzrə dəqiq aparılmalıdır.Ətraf mühitin çirklənməsinin damalı insan inkişafına təsirini aşağıdakı Kuznet əyrisi adlanan qrafikdə göstərək.




Ümumiyyətlə, Azərbaycan Respublikasında oksigen ehtiyatı Xəzər ekoloji sisteminin hasil etdiyi oksigen nəzərə alınmazsa 36,2 mln. t/il hesablanır.Atmosfer havası oksigeninin reproduktivlik əmsalı ayrı-ayrı bölgərdə, məsələn, Naxçıvanda 1.4 və Qarabağ bölgəsində 6,6 ətrafında dəyişir. İnzibati rayon bölgələrində həmin əmsal Bakıda 0,04 və Şəki bölgəsində 13,7 arasında dəyişir.Azərbaycan Respublikasında ekoloji göstərici olan atmosferin ekoloji aspektdən qiymətləndirilməsi aşağıdakı cədvəldə göstərək. Respublikamızda SSRİ-nin dağılması nəticəsində ətraf mühiti çirkləndirən sənaye müəssisələrinin əksəriyyəti dayandıqdan sonra atmosferə atılan zəhərli maddələrin miqdarı kəskin azaldı. 1987-ci ildə respublikanın hava hövzəsinə 2,05 mln.t zərərli tullantılar atılmışdır. Bunun 0,25 mln. tonu bərk maddələr (toz), 0,15 mln. tonu kükürd qazı, 0,99 mln. tonu isə karbohidrogenlibirləşmələrolmuşdur.

| | 2000 | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Müayinə edilmiş müəssisələrin | 518 | 621 | 520 | 568 | 477 | 324 | 400 | 345 | 427 | 1071 | 821 | 872 | 1164 |
| onlardan, atmosfer havasına çirkləndirici maddələri normadan | 118 | 168 | 58 | 111 | 249 | 47 | 58 | 73 | 108 | 339 | 283 | 316 | 503 |
| müayinə olunmuş müəssisələrin sayına nisbətən, | 23 | 27 | 11 | 20 | 10.3 | 15 | 15 | 21 | 25 | 31.6 | 34.5 | 36.2 | 43.2 |
| Havanın mühafizəsi qanunvericiliyinin pozulmasına görə inzibati məsuliyyətə cəlb | 278 | 172 | 52 | 111 | 47 | 45 | 48 | 63 | 100 | 114 | 59 | 85 | 273 |
| Cərimələrin məbləği, min manat | 3.2 | 11.8 | 187.9 | 276.7 | 113 | 116.2 | 124.3 | 312.0 | 139.2 | 176.2 | 42.0 | 27.0 | 462.0 |

Su ehtiyatları tükənən sərvət olduğundan onun inteqrasiyalı və səmərəli idarə olunması çox vacib aspektdir. Bu məqsədlə suların çirklənməsinin qarşısının alınması məqsədi ilə tədbirlər görülür, suların transsərhəd çirklənməsinin qarşısının alınması məqsədi ilə transsərhəd diaqnostik analizlər aparılır, milli, regional və qlobal səviyyədə müxtəlif layihələr həyata keçirilir. Abşeron yarımadasında ümumi sahəsi 3325 ha qədər olan 200-dən artıq göl mövcuddur. Bu göllərə il ərzində 41,5 mln. kubmetr çirkab sular axıdılır. Bu göllərin ətraf mühitə təsiri torpaqların deqradasiyaya uğraması və şoranlaşmasından, səviyyənin qalxması nəticəsində əlavə torpaq sahələrinin su altında qalmasından, buxarlanma nəticəsində karbohidrogenlər və digər zərərli maddələrin atmosferə atılmasından, yaşayış məntəqələrinə, müəssisələrinə, yollar və digər kommunikasiya xətlərinə xələl yetirilməsindən ibarətdir. Daha çox çirklənməyə məruz qalmış göllər- Böyük Şor, Bülbülə, Qırmızıgöl, Hacı Həsən və Çuxurdərə gölləridir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin orqanları tərəfindən su ehtiyatlarının mühafizəsinə dövlət nəzarətiaşağıdakıcədvəldəgöstərək.

Ətraf mühitin qorunmasında torpaq da əsas faktor sayılır. Torpaqdan istifadə səmərəli istifadə dedikdə erroziyanın qarşısının alınması, əkin-bağın və otlaqların qorunması tədbirləri keçirilməsi nəzərdə tutulur.Torpağın ekoloji cəhətdən qiymətləndirilməsi aşağıdakı cədvəldə göstərilmişdir

Azərbaycanda ətraf mühitin mühafizəsinə çəkilən xərcləri aşağıdakı cədvəldə göstərək(min manat)

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 260673,8 | 320253,5 | 419317,9 | 398187,5 | 283414,6 | 136208,3 | 155817,2 | 189044,1 | 319256,1 |
| Tədbirlərə çəkilən xərc | 52817.3 | 61511.2 | 59429.5 | 73298.6 | 44802.3 | 32258.4 | 26324.0 | 30525.3 | 47896.3 |
| İstehsal fondlarına çəkilən xərc | 4793.6 | 4849.4 | 4268.2 | 3675.6 | 2,697.1 | 1605.0 | 1043.4 | 5123.6 | 3395.1 |
| Milli parklar,balıqların mühafizəsinə çəkilən xərclər | 3902.7 | 4553.7 | 4855.0 | 5611.8 | 6,151.9 | 5949.8 | 6777.6 | 6895.9 | 6807.5 |
| Meşə təsərrüfat əməliyyatlarına | 9153.0 | 10064.0 | 10893.1 | 11002.1 | 12,829.4 | 11530.7 | 12126.2 | 13112.3 | 13245.0 |
| Bu sahəyə və təbiətdən səmərəli istifadəyə yönəldilmiş kapitala vəsait | 190007.2 | 239275.2 | 339872.1 | 304599.4 | 216,933.9 | 84864.4 | 109546.0 | 133387.0 | 247912.2 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| ÜDM-in hər min manatına düşən xərclər | 9.74 | 11.95 | 15.31 | 13.74 | 9.51 | 4.52 | 5.34 | 6.47 | 10.77 |

**Ədəbiyyat**


1. Məmmədov Qərib, Xəlilov Mahmud. Ekologiya və ətraf mühitin mühafizəsi,Baki-2005

2.Şövqi Göyçaylı, Telman İsmayılov. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları,Bakı-2008

3. http://stat.gov.az/ - AR Dövlət Statistika Komitəsinin saytı